# Avdiya

*Peyğəmbərin Kitabı*

***Giriş***

*«Avdiya»* Kitabı miladdan əvvəl 586-cı ildə Babillilərin Yerusəlimi zəbt etdiklərindən sonra yazılıb. Yəhudanın qədim düşməni Esavın nəslindən olan Edomlular Yerusəlimin süqutuna sevinib şəhərin talanmasında işğalçılara kömək etdilər. Avdiya peyğəmbər Edomun dağılması və məğlubiyyəti barədə peyğəmbərlik etmişdi.

***Kitabın məzmunu:***

Edomun cəzalandırılması 1:1-14
Rəbbin günü 1:15-21

1 [1] Bu, Avdiyaya zühur olan görüntüdür.

### *Edom üzərində Allahın məhkəməsi*

Xudavənd Rəbb Edom barəsində belə
deyir:
Biz Rəbdən xəbər eşitdik,
Millətlər arasına
«Qalxın, Edoma qarşı döyüşək!» deyən
qasid göndərildi.
[2] «Budur, Mən səni millətlər arasında
kiçik edəcəyəm,
Hamı sənə xor baxacaq.
[3] Ey sən qaya[1] çatlarında məskən salan,
Evini yüksəklərdə quran!
Ürəyinin qüruru səni aldatdı,
Çünki sən qəlbində "Məni kim yerə yıxa
bilər?" dedin».
[4] Rəbb bəyan edir:
«Sən qartal kimi yuxarı uçub
Yuvanı ulduzlar arasında qursan da,
Mən səni oradan yerə salacağam.

[5] Əgər gecə yanına oğrular, quldurlar
gəlsəydi,
Ancaq öz istədikləri qədər
oğurlamazdılarmı?
Bağına üzüm yığanlar gəlsəydi,
Bir neçə salxımı başaq qoymazdılarmı?
Amma gör səni nə cür müsibətlər
gözləyir!
[6] Esavın hər şeyi talan ediləcək,
Gizli xəzinələri aşkara çıxarılacaq.
[7] Səninlə əhd bağlayanların hamısı
Səni ölkəndən qovacaq,
Müttəfiqlərin səni aldadıb məğlub
edəcək.
Səninlə çörək yeyənlər sənə tələ quracaq,
"Onun ağlı haradadır?" deyəcək».
[8] Rəbb bəyan edir:
«O gün Edomun hikmətli adamlarını,
Esav dağındakı müdrikləri məhv
edəcəyəm.
[9] Ey Teman,[2] igid adamların elə qorxuya
düşəcək ki,
Esav dağlarının hər sakini qırğında
öldürüləcək.

[10] Qardaşın Yaquba etdiyin zorakılığa
görə
Sən xəcalət içində qalacaqsan,
Əbədi məhv olacaqsan.[3]
[11] Yadellilər onun sərvətini aparanda
Sən uzaqda durub tamaşa etdin.
Əcnəbilər onun şəhər darvazalarından
girib
Yerusəlim üçün püşk atanda
Sən də onlardan biri kimi davrandın.
[12] Sən gərək Yəhudalı soydaşlarının
Bədbəxtlik günündən zövq almayaydın,
Həlak olduqları gün sevinməyəydin,
O əzablı gündə rişxənd etməyəydin,
[13] Xalqımın fəlakətli günündə
Onların şəhər darvazalarından
girməyəydin,
Başlarına bəla gələn gün
Onların fəlakətini sevinclə seyr
etməyəydin,
Başlarına bəla gələn gün
Onların malına əl uzatmayaydın!
[14] Sən gərək qaçan Yəhuda övladlarını
öldürmək üçün
Yol ayrıcında dayanmayaydın,
O əzablı gün qurtulanları
Düşmənə təslim etməyəydin!

### *Rəbbin günü yaxınlaşır*

[15] Axı bütün millətlər üçün Rəbbin günü
yaxınlaşır,
Ey Edom, sən nə cür etdinsə, sənə də
belə ediləcək,
Əməllərinin əvəzi öz başına gələcək!

***1:1-14*** *– Yeş. 34:5-17; 63:1-6; Yer. 49:7-22; Yez. 25:12-14; 35:1-15; Amos 1:11-12; Mal. 1:2-5*

[1] **1:3** Söz oyunu: *qaya* – ibrani dilində *sela* kimi səslənir. Sela Edomun paytaxtının adı idi.

[2] **1:9** *Teman* – Edomun şəhərlərindən biri.

[3] **1:10** Yaqubla Esav doğma qardaş idi. Yaqub İsraillilərin əcdadı idi. Esav Edomluların əcdadı idi.

16 Çünki siz Mənim müqəddəs dağımda
    içdiyiniz kimi
Bütün xalqlar durmadan içəcək,
İçib yox olacaq,
Sanki əvvəldən yox idi.

### *İsrailin zəfəri*

17 Lakin qurtuluş tapanlar
Sion dağına toplanacaq,
O dağ müqəddəs olacaq.
Yaqub nəsli mülkünə sahib olacaq!
18 Yaqub nəsli od,
Yusif nəsli alov,
Esav nəsli isə küləş olacaq,
Yaqub və Yusif nəsli
Esav nəslini yandırıb məhv edəcək.
Esav nəslindən qurtulan olmayacaq.
Çünki Rəbb belə söylədi.

19 Negev sakinləri Esav dağını,
Yamaclı-düzənlikli bölgədə yaşayanlar
    Filiştlilərin bölgəsini,
Yəhudalılar Efrayimlə Samariya
    torpaqlarını,
Binyaminlilər isə Gileadı zəbt edəcək.
20 Xalahda olan İsrail sürgünləri
Kən'anın Sarfata qədər uzanan
    torpaqlarını,
Sefaradda olan Yerusəlim sürgünləri,
Negev şəhərlərini zəbt edəcək.
21 Xalqı qurtaranlar Sion dağına çıxıb
Esav dağına hökm edəcək:
Rəbb səltənət sürəcək».